# Həftəlik *Bülleten*

**133**

**13 Mart 2026**



- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Füzulinin Qarğabazar kəndindəki karvansara və məscidin təmiri üçün satınalma proseduruna başlanılıb.**

Füzuli rayonunun Qarğabazar kəndində yerləşən ölkə əhəmiyyətli memarlıq abidəsi olan Karvansaranın və yerli əhəmiyyətli memarlıq abidəsi olan Məscidin bərpası və ətrafının abadlaşdırılması istiqamətində tədbirlər görülür.

Bu barədə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən məlumat verilib.

Məlumatda bildirilib ki, sözügedən tarixi abidələrin bərpa və ətrafının abadlaşdırılması üçün layihə-smeta sənədləri hazırlanacaqdır. Artıq hər iki abidənin layihə-smeta sənədlərinin hazırlanması ilə bağlı satınalma proseduruna başlanılıb.



**Bakıda bu rayonlarda yeni söküntülər olacaq – TAM SİYAHI, ÜNVANLAR.**

Paytaxtda qəzalı binaların sökülməsi və yeni infrastruktur layihələrinin icrası ilə bağlı mərhələli proses davam edir. Yaxın perspektivdə Bakının bir sıra rayonlarında söküntü işlərinin aparılması planlaşdırılır. Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədri Vüqar Oruc bildirib ki, ilkin mərhələdə proses 9 rayonu əhatə edəcək: “Plan üzrə aşağıdakı rayonlarda qəzalı və istismar müddəti başa çatmış binaların sökülməsi nəzərdə tutulur: Nərimanov, Yasamal, Nəsimi, Səbail, Xətai, Nizami, Sabunçu, Suraxanı, Pirallahı. Bu ərazilərdə əsasən rəsmi akt tərtib olunmuş, qəzalı vəziyyətdə olan çoxmənzilli binalar və yeni infrastruktur layihələrinin düşdüyü zonalarda yerləşən fərdi yaşayış evləri söküləcək”. AQC sədri əlavə edib ki, qəzalı binalarla bağlı aktlar müvafiq dövlət qurumları tərəfindən tərtib olunur: “Söküntü və yenidənqurma prosesi şəhərin Baş Planına – “Bakı 2040” inkişaf konsepsiyasına uyğun şəkildə həyata keçirilir. Sökülən ərazilərdə yeni yaşayış binaları, parklar, sosial obyektlər və nəqliyyat infrastrukturu yaradılması nəzərdə tutulur. Yaxın müddətdə aşağıdakı ərazilərdə aktiv proses gözlənilir: “Təzəpir” məscidi ətrafı, “Bayıl şəhər” adlanan ərazilər, Keçmiş “Sovetski” (Yasamal rayonu) ərazisi, Metro stansiyalarının ətraf zonaları, Planlaşdırılan tramvay xətlərinin keçəcəyi küçələr, Ceyhun Hacıbəyli küçəsi və 1 saylı xəstəxananın ətrafı. Vüqar Oruc həmçinin qeyd edib ki, söküntü işləri mərhələli şəkildə və plan əsasında həyata keçirilir.



**Bakıda sənaye istehsalı yanvarda 3,6 milyard manata çatıb.**

Bu ilin yanvar ayında Bakıda sənaye sektorunda istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 3,6 milyard manat təşkil edib. Bu barədə Bakı şəhər Statistika İdarəsinə istinadən xəbər verir. Məlumata görə, sənaye məhsulunun 70,0 faizi mədənçıxarma, 25,1 faizi emal, 3,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Hesabat ayında sənayedə qeyri-dövlət sektorunun payı 83,3 faiz olub. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 86,4 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 13,6 faiz təşkil edib.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 1 fevral 2026-cı il vəziyyətinə 431,8 milyon manatlıq hazır məhsul ehtiyatı olub. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 39,9 milyon manat məbləğində digər məhsullar da mövcud olub.



**Fərdi yaşayış evi tikilməmişdən öncə diqqət edilməli məqamlar.**

Bəzən tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində fərdi yaşayış evinin tikintisinə cəhd edilir. Bu barədə Əmlak Məsələləri Dövlət Xidmətinə istinadən xəbər verir ki, bu halda inşa edilən ev özbaşına tikinti sayılır və həmin fərdi yaşayış evinin mülkiyyət hüququ verən çıxarışla təmin edilməsi mümkün olmur. Odur ki, fərdi yaşayış evinin tikintisi üçün torpaq sahəsi alarkən həmin torpaq sahəsi üzrə hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatdan keçib-keçməməsi müəyyən edilməlidir. Əgər torpaq sahəsi üzərində hüquqlar dövlət reyestrində qeydiyyatdan keçməyibsə və hüquqlar daşınmaz əmlakın dövlət reyestrindən çıxarışla rəsmiləşdirilməyibsə həmin torpaq sahəsinin notarial qaydada alqı-satqısı mümkün deyil. Həmçinin, torpaq sahəsinin yaşayış məntəqələrinin torpaqları kateqoriyasına və təyinatının isə həyətyanı məqsədlər üçün nəzərdə tutulmuş torpaq sahələrinə aid olub-olmaması aydınlaşdırılmalıdır. Vətəndaşlar mülkiyyətində olan torpaq sahələrində fərdi yaşayış evinin tikintisinə başlamamışdan öncə tikiləcək fərdi yaşayış evinin memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələrinin hazırlanmasını təmin etməlidir. Qeyd edək ki, memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planını yalnız Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş və layihələndirmə fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) almış hüquqi və ya fiziki şəxslər həyata keçirə bilərlər.



**Paytaxtda inşaat işlərinin 75,7%-i tikinti və yenidənqurma işlərinin payına düşüb.**

Bu ilin yanvar ayında Bakıda tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 75,7 faizini inşa, yenidənqurma və bərpa, 10,9 faizini əsaslı təmir, 7,9 faizini cari təmir, 5,5 faizini isə sair tikinti işləri təşkil edib.

Bu barədə Bakı Şəhər Statisika İdarəsinə istinadən xəbər verir.

Məlumata görə, ümumi inşaat işlərinin 93,5 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetiriblər.



**Bacarıqların İnkişafı üzrə Sahə Komissiyasının növbəti iclası keçirilmişdir.**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 12 dekabr 2019-cu il tarixli 475 nömrəli qərarının icrası çərçivəsində, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 26 dekabr 2025-ci il tarixli əmrinə əsasən yaradılmış Bacarıqların İnkişafı üzrə Sahə Komissiyasının növbəti iclası keçirilmişdir. İclas zamanı 2021-ci ildə təsdiq edilmiş və yenilənməsinə zərurət yaranan peşə adlarının siyahısı, həmçinin növbəti il üçün hazırlanması nəzərdə tutulan yeni peşə və kvalifikasiya standartları üzrə təkliflər müzakirə edilmişdir.Komissiya üzvlərinin iştirakı ilə sahə üzrə peşə adlarının təkmilləşdirilməsi və yeni standartların hazırlanması istiqamətində fikir mübadiləsi aparılmışdır.



**“Müasir rəqəmsal dünyada istehlakçılar: elektron ticarət, rəqəmsal xidmətlər və təhlükəsizlik” mövzusunda tədbir baş tutub.**

12 mart tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin təşkilatçılığı ilə “Müasir rəqəmsal dünyada istehlakçılar: elektron ticarət, rəqəmsal xidmətlər və təhlükəsizlik” mövzusunda tədbir baş tutub.

Tədbirdə dövlət qurumlarının, ictimai təşkilatların, sahibkarlıq subyektlərinin və media nümayəndələrinin iştirakı ilə istehlakçı hüquqlarının müdafiəsi sahəsində mövcud vəziyyət, beynəlxalq təcrübə və müasir çağırışlar müzakirə edilib.

Bu kimi təşəbbüslər istehlakçı hüquqlarının qorunması istiqamətində maarifləndirmənin artırılmasına və aidiyyəti tərəflər arasında əməkdaşlığın gücləndirilməsinə töhfə verir. Tədbirdə ATMİA baş katibi və üzvləri də yaxından iştirak etdilər.





# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: MODULAR & PREFAB 2026**

**Tarixlər: 17 - 19 mart 2026 - cı il,**

**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**

Modular & prefab expo sərgisi prefabrikasiya və modul tikinti texnologiyalarına həsr olunub. Sərgidə taxta konstruksiyalar, modul və çərçivəli evlər,müasir tikinti materialları,tikinti sektoru üçün dayanıqlı həllər sahəsindəki yeniliklər nümayiş etdirilir

**Sərginin adı: CERAMICS AFRICA 2026**

**Tarixlər: 18-20 mart 2026-cı il,**

**Məkan: Qallaher Konqres Mərkəzi, Yohannesburq (Cənubi Afrika)**

Ceramics Africa, döşəmə plitələri, divar plitələri, şüşələnmiş plitələr, sanitariya plitələri, vanna otağı əşyaları, vanna armaturları, bitkilər, keramika plitələri, santexnika, süfrə əşyaları, ağır gil üçün maşın və avadanlıqlar kimi keramika sənayesi məhsulları üzrə ən yaxşı ticarət sərgisidir...

**Sərginin adı: GILF - GUZHEN INTERNATIONAL LIGHTING FAIR 2026**

**Tarixlər: 18-21 mart 2026-cı il,**

**Məkan: Qujen Konqres və Sərgi Mərkəzi, Çjonqşan (Çin)**

Çində Beynəlxalq LED İşıqlandırma, Dekorativ İşıqlandırma və Sənaye İşıqlandırma Sərgisi

**Sərginin adı: INTERBUILDEXPO 2026**

**Tarixlər: 18-20 mart 2026-cı il,**

**Məkan: Kiyev Beynəlxalq Sərgi Mərkəzi, Kiyev (Ukrayna)**

Beynəlxalq Tikinti və Memarlıq Sərgisi. InterBuildExpo Ukraynada keçirilən ən əhəmiyyətli beynəlxalq tikinti sərgisidir

**Cəbrayılın Şükürbəyli kəndində böyük tikinti işləri aparılacaq - 7 MİLYON MANATLIQ TENDER**

"Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu" (VÖEN – 1400305341) açıq tender elan edir.
Tenderin predmeti Cəbrayıl rayonunun Şükürbəyli kəndində 1042 ailəlik (I mərhələ - 635 ailəlik) yaşayış məntəqəsinin sel sularından mühafizə tədbirləri, drenaj şəbəkəsi, istinad divarları, körpülər və yağış kanalizasiya şəbəkəsinin tikintisidir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Aygun Hüseynova - Satınalmalar üzrə menecerin müavini
Email: a.huseynova@sfdi.gov.az
Əlaqə telefonu: +994 12 431 87 03



**Dövlət qurumu Hadrutda 4 milyon manatlıq inzibati bina tikdirəcək – TENDER**

Fövqəladə Hallar Nazirliyinin Əsaslı Tikinti İdarəsi (VÖEN – 1401033061) açıq tender elan edir.
Tenderin predmeti Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin Xocavənd rayon Dövlət Yanğından Mühafizə Hissəsinin Hadrut qəsəbəsində 4 çıxışlı inzibati binasının tikintisidir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Süleymanzadə Səxavət - Müqavilə və satınalmalar sektorunun müdiri
Email: saxavat.suleymanzade@fhn.gov.az
Əlaqə telefonu: +994 12 512 30 20



**Zar kəndinin su təminatı üçün 7 milyonluq tender keçirilir.**

"Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti" PHŞ (VÖEN – 1300300711) açıq tender elan edir.
Tenderin predmeti Zar kəndinin xarici su təchizatı, tullantı su şəbəkə və qurğularının tikintisidir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Toğrul Quliyev - Satınalmalar və təminat sektorunun müdiri
Email: toghrul.r.guliyev@sosial.gov.az
Əlaqə telefonu: +994 36 545 38 03



**Kəlbəcərin Zallar kəndinin xarici su təchizatı üçün 5,4 milyon manat xərclənəcək – TENDER.**

"Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti" Publik Hüquqi Şəxsi (VÖEN – 1300300711) açıq tender elan edir.
Tenderin predmeti Zallar kəndinin xarici su təchizatı, tullantı su şəbəkə və qurğularının tikintisidir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Yusif Hüseynov - Planlama və Satınalmaların Təşkili şöbəsi baş məsləhətçi-şöbə müdirinin müavini
Email: yusif.huseynov@toom.gov.az
Əlaqə telefonu: +994 55 225 12 31



**Ağdamda sağlamlıq mərkəzi tikiləcək - BÖYÜK TENDER.**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxsi (VÖEN – 3201635961) açıq tender elan edir.
Tenderin predmeti Ağdam rayonun Xıdırlı kəndində Ailə sağlamlıq mərkəzinin (Həkim tibb məntəqəsi, Təhsil və səhiyyə işçilərinin müvəqqəti yaşayış üçün qonaq evi) tikinti işlərinin satın alınmasıdır.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fərid Əzizov - Satınalma üzrə Baş məsləhətçi
Email: f.azizov@afxbti.gov.az
Əlaqə telefonu: +994 50 672 37 77





**www.atmia.az**